# Mündəricat

səh.

“2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı....5

**İQTİSADİ-STATİSTİK TƏDQİQATLAR**

***Vahid Novruzov***
Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi və inkişaf....10

***Yadulla Həsənli, Gülbala Quliyev***
Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının Kobb-Duqlas funksiyası ilə təhlili.......19

***Tahir Şükürov***
İstehlak bazarında marketinq logistikasının rolu və səmərəliliyi....31

***Əli Əliyev***
Firmanın innovasiyalı inkişafında qeyri-maddi aktivlərin rolu və onun qiymətləndirilməsinin bəzi məsələləri....39

***Vüsalə Teymurova***
İnsan kapitalının formalaşmasında təhsilin rolu....43

***Xəqani Məmmədov***
Dayanıqlı inkişafın göstəricilər sisteminin statistik metodlarla tədqiqi....48

***Saleh Mövlamov***
Ərzaq təhlükəsizliyinin statistik tədqiqi....54

**METODOLOGİYA**

***Rza Allahverdiyev, Xalıq Nəsibov***
Əhali sayının proqnozlaşdırılması üzrə metodoloji yanaşma aspektləri....62

***Elçin Hacı***
Seçmə statistika müşahidələrinin aparılmasının metodoloji əsasları....70

***Zərifə Nağıyeva***
Statistik tədqiqatın təşkili məsələləri....79

**2016-cı İLİN YEKUNU ÜZRƏ ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR GÖSTƏRİCİLƏR**

Makroiqtisadi göstəricilər....87

**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun Banqkokda BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının Statistika Komitəsinin 5-ci sessiyasında iştirakı haqqında məlumat....88

**RƏSMİ STATİSTİKANIN İNKİŞAFI**

Dövlət Statistika Komitəsində 2016-cı ilin yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə dair geniş kollegiya iclası haqqında məlumat....90

**AZƏRBAYCANIN STATİSTİKA TARİXİNİN SƏHİFƏLƏRİNDƏN**

Talıblı Böyükağa Mirqasım oğlu (anadan olmasının 120 illiyinə)....92

2017-ci ildə statistika sahəsində beynəlxalq tədbirlər....94

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**
**QƏRAR**
**№ 517**

**Bakı şəhəri, 16 dekabr 2016-cı il**

**2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı haqqında**

"2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 sentyabr tarixli 1040 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi məqsədi ilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılsın.

2. Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın tərkibi təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması 2019-cu il 1 oktyabr tarixli saat 00.00 vəziyyətinə, sorğu yolu ilə aparılsın.

4. Əhalinin siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə 2018-ci il 1-10 oktyabr tarixlərində Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınması keçirilsin.

5. Nəzərə alınsın ki, əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsinə yerli icra hakimiyyəti orqanları və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi məsuliyyət daşıyırlar.

6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hesablamaları əsasında əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması, siyahıyaalmaya cəlb ediləcək şəxslərin əmək və xidmət haqlarının ödənilməsi və digər təşkilati məsələlərin həllini təmin etmək məqsədi ilə 2018-2022-ci illərin dövlət büdcəsində hər il müvafiq məbləğdə vəsait nəzərdə tutulsun.

7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsini, yekunlarının işlənilməsini, nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədi ilə siyahıyaalma qrupunun yaradılmasına icazə verilsin və onun fəaliyyəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə 2017-2022-ci illər üzrə hər il üçün razılaşdırılmış işçilərin say həddi və əməkhaqqı fondu daxilində müddətli əmək müqaviləsi ilə işçilər cəlb olunmaqla təmin edilsin.

8. Siyahıyaalma qrupu aşağıdakı işçilərdən təşkil edilir:

8.1. siyahıyaalma qrupunun rəhbəri;

8.2. siyahıyaalma qrupu rəhbərinin müavini;

8.3. siyahıyaalma qrupu rəhbərinin şəhər, rayon və şəhər rayonları üzrə nümayəndələri (bir il müddətinə);

8.4. baş iqtisadçılar;

8.5. aparıcı iqtisadçılar;

8.6. iqtisadçılar;

8.7. siyahıyaalma məlumatlarının elektron məlumat sisteminə daxil edilməsi üzrə kompüter operatorları (hər 1 milyon əhali üçün 25 nəfər hesabı ilə bir il müddətinə).

9. Əhalinin siyahıyaalınması, o cümlədən sınaq siyahıyaalınmasının başlanılmasına 1 (bir) ay qalmış şəhər, qəsəbə və kəndlərdə orta hesabla 14 min nəfər əhalini əhatə edən siyahıyaalma məntəqələri yaradılsın.

10. Siyahıyaalma məntəqələri aşağıdakı işçilərdən təşkil olunur:

10.1. siyahıyaalma məntəqəsinin müdiri (60 təqvim günü müddətinə);

10.2. siyahıyaalma məntəqəsi müdirinin müavini (60 təqvim günü müddətinə);

10.3. təlimatçı-nəzarətçilər (orta hesabla 5 sayıcıya bir təlimatçı-nəzarətçi hesabı ilə 30 təqvim günü müddətinə);

10.4. sayıcılar (orta hesabla hər 300 nəfər əhaliyə bir əsas və 14 min nəfər əhaliyə bir ehtiyat sayıcı hesabı ilə 26 təqvim günü müddətinə).

11. Siyahıyaalma məntəqələrinin işçilərlə komplektləşdirilməsi rayon (şəhər) məşğulluq orqanlarında işaxtaran kimi qeydiyyata alınmış vətəndaşları, iş yerlərində əməkhaqları saxlanılmaqla yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların işçilərini, müəllim və tələbələri, uçot sahəsində səriştəsi olan digər şəxsləri mülki-hüquqi müqavilələr üzrə cəlb etməklə həyata keçirilsin.

12. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi:

12.1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Siyahıyaalma qrupunun işçilərinin aylıq vəzifə maaşlarının və siyahıyaalma məntəqələri işçilərinin xidmət haqlarının məbləğlərini müvafiq işçilərin vəzifə maaşları məbləğlərinə uyğunlaşdıraraq 1 (bir) ay müddətində təsdiq etsin;

12.2. əhalinin siyahıyaalınması, o cümlədən sınaq siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onların keçirilməsini, yekunlarının işlənilməsini, nəticələrinin dərc edilərək yayılmasını təmin etmək məqsədi ilə 2018-2022-ci illər üzrə hər növbəti il üçün maliyyə vəsaitinə olan tələbatı müəyyənləşdirib müvafiq büdcə layihəsini hər il iyul ayının 1-dək Azərbaycan Respublikası Maliyyə Nazirliyinə təqdim etsin;

12.3. 2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının hazırlanıb keçirilməsi üzrə təqvim planını 2017-ci il fevral ayının 1-dək təsdiq etsin;

12.4. Azərbaycan Respublikasının müvafiq dövlət orqanları və elm təşkilatlarının iştirakı ilə əhalinin siyahıyaalınmasının keçirilməsi üzrə siyahıyaalma və sorğu vərəqələrinin layihəsini 2017-ci ilin sonunadək hazırlayıb təsdiq etsin, siyahıyaalma məlumatlarının elektron məlumat sisteminə daxil edilməsi, işlənilməsi və yekunlarının əldə edilməsi məqsədi ilə proqram təminatlarının hazırlanmasını təmin etsin;

12.5. 2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi qaydalarını 2018-ci il may ayının 1-dək hazırlayıb təsdiq etsin;

12.6. 2018-ci ilin sonunadək əhalinin siyahıyaalınması ilə bağlı şəhər, rayon və şəhər rayonları üzrə təşkilati planların tərtib olunmasını təmin etsin;

12.7. əhalinin siyahıyaalınması, o cümlədən sınaq siyahıyaalınmasının başlanılmasına azı 6 (altı) ay qalmış onların keçirilməsi üçün zəruri olan metodoloji və digər materialların, siyahıyaalma və sorğu vərəqələrinin, habelə əhalinin məlumatlandırılması üçün əyani vəsaitlərin çap edilməsini, reklam çarxlarının hazırlanmasını təmin etsin;

12.8. əhalinin siyahıyaalınmasının əhəmiyyəti, onun mütəşəkkil keçirilməsində vətəndaşların rolu, köməyi və digər məsələlər haqqında respublikanın kütləvi informasiya vasitələrində xüsusi maarifləndirici materialların işıqlandırılması üçün müvafiq tədbirlər görsün;

12.9. siyahıyaalma məntəqələrinin işinə cəlb ediləcək şəxslərin 2019-cu ilin avqust-sentyabr aylarında seçilib təlimatlandırılmasını təmin etsin;

12.10. əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə əlaqədar qarşıya çıxan və bu qərarla tənzimlənməyən məsələlərə dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı tələb olunduqda təkliflərini təqdim etsin.

13. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının şəhər, rayon, şəhər rayonlarının icra hakimiyyətləri:

13.1. siyahıyaalma ilə əlaqədar hazırlıq və onun keçirilməsi üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və mütəşəkkil yerinə yetirilməsini, qarşıya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılmasını təmin etmək məqsədi ilə 2016-cı ilin sonunadək Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavininin, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti başçıları müavinlərinin sədrliyi ilə əhalinin siyahıyaalınmasına yardım komissiyaları yaratsınlar;

13.2. 2018-ci il oktyabr ayının 1-dək yaşayış məntəqələrinin adlarının və inzibati sərhədlərinin dəqiqləşdirilməsini, küçələrin adlarının, məhəllələrin, evlərin və mənzillərin nömrələrinin qaydaya salınmasını, şəhər, qəsəbə, kənd və sahə inzibati ərazi dairələri üzrə təsərrüfatbaşına uçot sənədləri əsasında Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təsdiq etdiyi formalar üzrə məlumatların yerli statistika orqanlarına təhvil verilməsini təmin etsinlər, 2018-ci ilin oktyabr ayından 2019-cu ilin sonunadək inzibati ərazi bölgülərinin və yaşayış məntəqələrinin adlarının və onlardakı ünvanların dəyişdirilməsi barədə təklif verilməsini dayandırsınlar;

13.3. 2019-cu il avqust ayının 1-dək əhalinin siyahıyaalınmasına hazırlıq, onun keçirilməsi və siyahıyaalma materiallarının qəbul edilib saxlanmasını təmin etmək üçün siyahıyaalma məntəqələrini telefon rabitəsi və digər zəruri avadanlıqla təchiz olunmuş sahələrlə təmin etsinlər.

14. Qəbələ Rayon İcra Hakimiyyəti əhalinin sınaq siyahıyaalınmasının keçirilməsini təmin etmək məqsədi ilə bu qərarın 13.2-ci və 13.3-cü bəndlərində göstərilmiş hazırlıq işlərinin Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş təqvim planında nəzərdə tutulmuş müddətdə yerinə yetirilməsini təmin etsin.

15. Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə tabeliklərindəki rejimli obyektlərdə olan şəxslərin siyahıyaalınmasını və siyahıyaalma materiallarının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim olunmasını təmin etsinlər.

16. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə işləmək, təhsil almaq və digər məqsədlərlə xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə siyahıyaalınmasını və siyahıyaalma materiallarının Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim olunmasını təmin etsin.

17. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi, "Azərbaycan Hava Yolları", "Azərbaycan Dəmir Yolları" və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" qapalı səhmdar cəmiyyətləri, şəhər, rayon və şəhər rayonlarının icra hakimiyyəti orqanları Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

tərəfindən müəyyən edilmiş qaydada və təyin olunmuş müddətdə mehmanxanalarda, qatarlarda, gəmilərdə, hava və dəniz limanlarında, vağzallarda və stansiyalarda hərəkətdə olan əhalinin siyahıyaalınmasının aparılması üçün zəruri tədbirlərin görülməsini təmin etsinlər.

18. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi siyahıyaalma kadrlarına olan tələbatın ödənilməsi məqsədi ilə rayon (şəhər) məşğulluq orqanlarında işaxtaran kimi qeydiyyata alınmış uçot sahəsində səriştəsi olan vətəndaşların əhalinin siyahıyaalınmasının keçirilməsinə cəlb edilməsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə köməklik göstərsin.

19. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi öz xərcləri çərçivəsində şəhər, rayon və şəhər rayonlarının yaşayış məntəqələrinin 1:5000 miqyasında (ərazisi 10 kv.km-ə qədər olan yaşayış məntəqələrinin 1:2000 miqyasında) sxematik planlarını və rayonların 1:100000 miqyasında (əhalinin sıx yaşadığı ərazilərdə 1:50000 miqyasında) sxematik xəritələrini hazırlayıb kağız və elektron formada 2018-ci il sentyabr ayının 1-dək (Qəbələ rayonu üzrə 2017-ci il sentyabr ayının 1-dək) Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə təqdim etsin.

20. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı radio və televiziyada müntəzəm olaraq xüsusi verilişlər təşkil etsin və bununla bağlı həyata keçirilən tədbirlərin geniş işıqlandırılmasını təmin etsin.

21. Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması dövründə telekommunikasiya şəbəkələrinin işinin dayanıqlılığını təmin etmək üçün zəruri tədbirlər görsün.

***Artur Rasi-zadə***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin*
*2016-cı il 16 dekabr tarixli 517 nömrəli qərarına əlavə*

**Əhalinin Siyahıyaalınmasına Yardım üzrə**
**Mərkəzi Komissiyanın tərkibi**

| | |
|---|---|
| **Elçin Əfəndiyev** | Azərbaycan Respublikası Baş nazirinin müavini-komissiyanın sədri |
| **Tahir Budaqov** | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri-komissiya sədrinin müavini |
| **Cabbar Musayev** | Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının rəhbəri- komissiyanın katibi |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| **İlqar Fətizadə** | Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini |
| **Əli Abdullayev** | Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini |
| **Sevinc Həsənova** | Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini |
| **Mətin Kərimli** | Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini |
| **Kərim Vəliyev** | Azərbaycan Respublikası müdafiə nazirinin müavini |

| | |
|---|---|
| **İsmət Əliyev** | Azərbaycan Respublikası daxili işlər nazirinin müavini |
| **Ceyhun Həsənov** | Azərbaycan Respublikası ədliyyə nazirinin müavini – Penitensiar Xidmətin rəisi |
| **Faiq Tağı-zadə** | Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini |
| **Nadir Hüseynov** | Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| **Elsevər Ağayev** | Azərbaycan Respublikası səhiyyə nazirinin müavini |
| **Firudin Qurbanov** | Azərbaycan Respublikası təhsil nazirinin müavini |
| **Cavid Nəcəfov** | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi Aparatının rəhbəri |
| **Rüstəm Şahbazov** | Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini |
| **Gəray Fərhadov** | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini |
| **Aynur Sofiyeva** | Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini |
| **İsmayıl Bağırov** | Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini |
| **Pərviz Musayev** | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti rəisinin müavini |
| **Azad Ələkbərov** | Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini |
| **Fidumə Hüseynova** | Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini |
| **İlyas Əliyev** | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini |
| **Rəşad Nəsirov** | “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini. |

# AZƏRBAYCAN İQTİSADİYYATININ STRATEJİ YOL XƏRİTƏSİ VƏ İNKİŞAF

***Vahid Novruzov***
*Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, i.e.d., professor*
*AZ 1072, Bakı şəhəri, S.Y.Bakuvi küçəsi 14*
*e-poçt: www.audit.gov.az*

**Açar sözlər:** şəffaflıq, rəqabətqabiliyyətlilik, klasterləşmə, investisiyalar, nəzarət, hesabatlıq, yol xəritəsi.
**Ключевые слова:** прозрачность, конкурентоспособность, кластеризация, инвестиции, контроль, отчетность, дорожная карта.
**Keywords:** transparency, competitiveness, clustering, investments, control, reporting, road map.

**Vahid Novruzov**
**Azərbaycan iqtisadiyyatının Strateji Yol Xəritəsi və inkişaf**
**Xülasə**

Məqalədə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndən irəli gələn vəzifələr geniş təhlil edilmişdir. Yol Xəritəsində nəzərdə tutulmuş şəffaflıq və hesabatlılıq probleminin həlli istiqamətində qarşıya çıxan məsələlərə münasibət bildirilmiş və onların həlli yolları haqqında təkliflər verilmişdir. Yol Xəritəsində nəzərdə tutulmuş vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əlavə yol xəritələrinin qəbuluna ehtiyac olduğu göstərilmişdir.

**Вахид Новрузов**
**Стратегическая Дорожная Карта экономики Азербайджана и развитие**
**Резюме**

В статье широко проанализированы обязательства, вытекающие из "Стратегической Дорожной Карты по перспективе национальной экономики Азербайджанской Республики". Выражено отношение к возникающим вопросам решения проблем прозрачности и отчетности, предусмотренных в Дорожной Карте и даны предложения о путях их решения. Показана необходимость в принятии дополнительных дорожных карт для успешной реализации обязательств, предусмотренных в Дорожной Карте.

**Vahid Novruzov**
**Strategic Road Map of Azerbaijan's economy and development**
**Summary**

The article widely analyses obligations under "Strategic Road Map on the perspectives of national economy of the Republic of Azerbaijan". The attitude to the emerging issues of solution of transparency and reporting problems envisaged in the Road Map and proposal on ways of their solution are provided here. The necessity of adoption of additional road maps for successful implementation of obligations stipulated in the road map is shown here.

## Ədəbiyyat

1. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16 mart 2016-cı il.
2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il.
3. "Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 5 sentyabr 2016-cı il.

4. “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” Azərbaycan Prezidentinin Fərmanı. 24 noyabr 2003-cü il.
5. http://www.president.az/articles/17585 “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda Prezident İlham Əliyevin yekun nitqi. 26 yanvar 2016-cı il.
6. http://president.az/articles/1543?locale=az Prezident İlham Əliyevin Tovuz rayonu ictimaiyyət nümayəndələri ilə görüşündə çıxışı. 9 fevral 2017-ci il.

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İSTEHSALININ KOBB-DUQLAS FUNKSİYASI İLƏ TƏHLİLİ

***Yadulla Həsənli***
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru, i.e.d., professor*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: yadulla59@mail.ru*

***Gülbala Quliyev***
*Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin*
*Xidmət statistikası şöbəsinin müdiri*
*AZ 1136, Bakı şəhəri, İnşaatçılar prospekti 81*
*e-poçt: gulbala@azstat.org*

**Açar sözlər:** kənd təsərrüfatı, ümumi buraxılış, ekonometrik model, istehsal funksiyası, zaman sıraları, reqressiya tənliyi.
**Ключевые слова:** сельское хозяйство, валовой выпуск, эконометрическая модель, производственная функция, временные ряды, уравнение регрессии.
**Keywords:** agriculture, gross output, econometric model, production function, time series, regression equation.

**Yadulla Həsənli, Gülbala Quliyev**
**Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının**
**Kobb-Duqlas funksiyası ilə təhlili**
**Xülasə**

Məqalədə qeyri-neft sektoru olaraq, kənd təsərrüfatının inkişafını zəruri edən amillər nəzərdən keçirilmişdir. Kobb-Duqlas funksiyası vasitəsilə kənd təsərrüfatının mühüm göstəriciləri olan məhsul buraxılışı, əsas fondlar və məşğul əhalinin sayı arasında qanunauyğunluqlar müəyyən edilmişdir. Göstəricilərin zaman sırası üçün qrafiklər qurulmuşdur. Eviews proqram paketi vasitəsilə statistik testlər yerinə yetirilmiş və zaman sıralarının stasionarlığı yoxlanmışdır. Aparılmış təhlillər əsasında ekonometrik model qurulmuş və Azərbaycanda kənd təsərrüfatı üçün qiymətləndirilmiş Kobb-Duqlas istehsal funksiyasının standart şəkli müəyyən edilmişdir.

**Ядулла Гасанлы, Гюльбала Кулиев**
**Анализ производства сельскохозяйственной продукции в Азербайджане**
**с помощью функции Кобба-Дугласа**
**Резюме**

В статье рассмотрены факторы, характеризующие развитие сельского хозяйства, являющегося отраслью ненефтяного сектора. С помощью функции Кобба-Дугласа определены закономерности между важными показателями сельского хозяйства, такими как

валовой выпуск продукции, основные фонды и занятость населения. На основе временных рядов показателей построены графики. Посредством программного пакета Eviews выполнены статистические тесты и проведен анализ временных рядов на стационарность. На основе анализа построена эконометрическая модель и определена стандартная форма производственной функции, рассчитанной для сельского хозяйства в Азербайджане.

**Yadulla Hasanli, Gulbala Guliyev**

**Production analysis of agricultural products in Azerbaijan by means of function of Cobb-Douglas**

**Summary**

In article the factors necessary for development of the agricultural industry which is an industry of not oil sector were considered. By means of function of Cobba-Douglas regularities between important indicators of agricultural industry as gross output, fixed assets and employment of the population are determined. For times series of indicators graphics are constructed. By means of a software package of Eviews statistical tests are executed and time series analysis on stationarity was carried out. On the basis of the carried out analyses the econometric model is constructed and the standard form of the production function calculated for agricultural industry in Azerbaijan is determined.

**Ədəbiyyat**

1. “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri” haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16 mart 2016-cı il.
2. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il.
3. Yadulla Həsənli, Rasim Həsənov. İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi. Nafta-Press, 2002, 334 s.
4. Н.Ш. Кремер, Б.А.Путко. Эконометрика. М., «Юнити-Дана», 2007.
5. http://www.stat.gov.az
6. Марно Вербик. Путеводитель по современной эконометрике. М., «Научная книга», 2008.
7. http://www.eviews.com/EViews7/1
8. Y.Həsənli. Statistika. Praktiki nümunələrlə. Bakı: Tuna, 2014, 564 s.
9. Я.Р.Магнус, П.К.Катышев, А.А.Пересецкий. Эконометрика. Начальный курс: учебник– 6-е изд., перераб. и доп. – Москва. Дело, 2004, 576 с.

## İSTEHLAK BAZARINDA MARKETİNQ LOGİSTİKASININ ROLU VƏ SƏMƏRƏLİLİYİ

***Tahir Şükürov***
*Azərbaycan Kooperasiya Universitetinin*
*prorektoru, dosent, i.ü.f.d.*
*AZ 1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93*
*e-poçt: fatma.1986@mail.ru*

**Açar sözlər:** logistika, mal hərəkəti (yeridilişi), marketinq, ticarət, istehlakçı, istehlak bazarı, istehsalçı, daşıma, saxlama, səmərəlilik.
**Ключевые слова:** логистика, товародвижение, маркетинг, торговля, потребитель, потребительский рынок, производитель, транспортировка, хранение, эффективность.
**Keywords:** logistics, merchandise flow, marketing, trade, consumer, consumer market, producer, transportation, storage, efficiency.

**Tahir Şükürov**
**İstehlak bazarında marketinq logistikasının rolu və səmərəliliyi**
**Xülasə**

Məqalədə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin tələblərinə uyğun olaraq, ölkədə logistika xidmətinin rolu, əhəmiyyəti və səmərəliliyinin yüksəldilməsinin bəzi strateji məsələlərinə baxılmışdır.

İstehlak bazarında marketinq logistikasının səmərəli təşkili istiqamətləri və malların daşınması və saxlanması ilə əlaqədar logistik xərclərin aşağı salınması yolları müəyyən edilmişdir.

Məqalədə həmçinin istehlak bazarında marketinq logistikasının mahiyyəti və mal hərəkəti prosesində onun rolu və səmərəliliyi nəzəri-praktiki cəhətdən tədqiq edilmişdir.

**Тахир Шукюров**
**Роль и эффективность маркетинговой логистики на потребительском рынке**
**Резюме**

В статье рассмотрены некоторые стратегические вопросы: роль, значение и эффективность логистической службы страны в соответствии с требованиями "Стратегической Дорожной Карты по перспективе национальной экономики Азербайджанской Республики".

Определены основные направления эффективной организации маркетинговой логистики на потребительском рынке и пути снижения логистических расходов, связанных с транспортировкой и хранением товаров.

В статье также проанализированы сущность маркетинговой логистики, ее роль и эффективность в процессе товародвижения с практикой и теоретической точки зрения.

**Tahir Shukurov**
**The efficiency and role of the marketing logistics in the consumer market**
**Summary**

The article considers some strategic issues such as the role of logistic service in the country, its efficiency and importance according to demands of "Strategic Road Map on the perspectives of national economy of the Republic of Azerbaijan".

Main directions of effective organization of marketing logistics in consumer market and ways of decreasing of logistic expenses related with transportation and storage of goods have been defined here.

The article also analyses the essence of marketing logistics, its efficiency and role in the process of merchandise flow by the theoretical-practical aspect.

## Ədəbiyyat

1. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 6 dekabr 2016-cı il.
2. А.М. Гаджинский. Взаимосвязь логистики и маркетинга. М., Маркетинг, 2001.
3. Маркетинговая логистика. htts: /znfytovar. ru/new 2648 html
4. С.Кирюков. Маркетинговая логистика. СРБГУ-2001.
5. Н.А.Семенов. Маркетинг. Твер: ТГТУ, 2007.
6. T.Ş.Şükürov, R.Ş.Şükürov. Marketinq tədqiqatları. Bakı, Kooperasiya, 2007, 487 s.
7. Azərbaycanın statistik göstəriciləri-2015. Bakı, Səda: 2016.

# FİRMANIN İNNOVASİYALI İNKİŞAFINDA QEYRİ-MADDİ AKTİVLƏRİN ROLU VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

***Əli Əliyev***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Statistika" kafedrasının dosenti, i.ü.f.d.*
